# Qəbələ–gözəlliklər diyarı

Hər diyarı tarix qoxan Azərbaycanın ən qədim şəhərlərindəndir Qəbələm! Arxasında uca zirvəli Böyük Qafqazın dayandığı məğrur Qəbələm! Sanki "mən arxandayam, sən irəlilə, əzmlə inkişaf et" deyir Qafqaz dağları. Gözəldir, əsrarəngizdir, Qəbələm. Əbəs yerə dünyanın bütün ölkələrinə səsi, ünü yetməyib ki, dünyanın bir çox ölkələrindən insanları cəlb etməyib ki, özünə!



Çılğınca çağlayan dağ çaylarınımı deyim, həzin-həzin dalğalanıb sanki onları dinləyən Nohur gölünümü, yüksək qayalardan süzülən "Yeddi Gözəl" şəlaləsinimi, yoxsa min illəri özündə, ruhunda hər daşında, torpağında yaşadan tarixin sirli qapısı Çuxur Qəbələnimi?! Bunlar kifayətdirmi Qəbələmin vəsfinə?! Xeyr. Bütün bunlarla yanaşı müasir tikililəri ilə öyünür şəhərim. Bir-birindən gözəl, müasir otelləri, dağlara söykənən geniş əyləncə, istirahət mərkəzləri, muzeyləri, şıltaq Türyan, Dəmiraparan çayları və bütün bu gözəllikləri zirvələrdən seyr etmək üçün yaradılmış şəhərlə Tufandağ zirvələrini birləşdirən əsrarəngiz kanat yolu var Qəbələnin. Bu gözəllikləri görənlər, təbiətinə heyran olanlar dəfələrlə gəlmək, gəzmək istəyirlər Qəbələni. Odur ki, biz də öz övladı olaraq qədrini bilək, qayğısını çəkək Qəbələnin. Çünki, dünyanın mədəniyyət mərkəzidir, Azərbaycanın əfsanələr paytaxtıdır, gözəlliklər diyarıdır Qəbələm!

✍ **Əfsanə ZAKİROVA.**

# Qızılgül haqqında nə bilirsiniz?

İnsanlar ad günündə və bayramlarda yaxınlarına adətən nə bağışlamağa çalışırlar? Çox vaxt bir dəstə gül. Daha çox isə qızılgül dəstəsi.

Güllərin şahı sayılan qızılgül o qədər sevilir ki, dünyanın bir çox ölkələrində, o cümlədən İngiltərə, ABŞ və İranda milli gül sayılır. Qızılgül ləçəklərindən hazırlanmış dadlı mürəbbə Azərbaycanda çay süfrələrinin bəzəyidir. Yabanı qızılgülün bəzi növlərinə hətta şimal qütb dairəsində də təsadüf edilir.

Mədəniləşdirilmiş qızılgülün yaşı təqribən 5000 ildir. Hazırda bu əsrarəngiz bitkinin 300-ə yaxın növü var. Bu növlərin hər birinin ayrılıqda fərqini nəzərə aldıqda onların sayı 3000-ə çatır.



Dünyada ən qədim qızılgül kolunun Almaniyada bitdiyini bilirsinizmi? Həmin qızılgül kolu artıq 1000 ildir ki, Hildeshaym şəhəri kilsəsinin yanındadır. Onun hündürlüyü az qala kilsənin dam örtüyünə çatır. Si adlı çox maraqlı qızılgül növü qönçələrinin ölçüsü çəltik dənəsi boydadır.

Bir çoxunuz çay qızılgülü barədə eşitmisiniz? Onu rənginə görə deyil, təzə dəmlənmiş yüngül çay ətri gəldiyi üçün belə adlandırmışlar.

Bu məlumat isə sizi mütləq maraqlandıracaq: Yaponiya bioloqları rəngini dəyişən çox maraqlı qızılgül sortu yetişdirmişlər. Səhərlər ləçəkləri al qırmızı rəngə boyanan bu qızılgül axşama doğru rəngini dəyişərək ağappaq olur.

**Topladı: Elnarə ASLAN, Bunud kəndi.**

# Bunları bilmək maraqlıdır

✦Hər gün hava yollarından orta hesabla 10 milyon adam istifadə edir.

✦Pirat disklər orijinal disklərin gəlirlərini 52 faiz azaldır.

✦Son 3 ildə Azərbaycanda ən çox satılan maşın «Mersedes»dir.

✦Kosmosda Astronavtlar qışqıra bilmir, çünki orda cazibə qüvvəsi yoxdu, həmçinin onların gözlərindən yaş da gəlmir.

✦İndoneziyada bazarlıq edərkən satıcı pulu yerə atsa, son qiymət mənasına gəlir, yəni artıq razılaşıb.

✦Hərbi salamı sol əllə vermək bütün dünyada qadağandır.

✦İlk metro stansiyası 1860-cı ildə İngiltərədə açılıb.

✦İlanlar eşitmir.

✦Qarışqalar yatmır.

✦Kirpilər suda batmır.

✦Qütb ayıları solaxaydır.

**Topladı: Fərman ƏZİZLİ, müəllim.**

# Nikola Tesla və yarımçıq qalmış simsiz elektrik layihəsi

Hazırda paytaxt Bakıda da heykəli olan Nikola Tesla hələ sağlığında bütün dünyada dahi fizik kimi tanınmışdı. Lakin elmdəki çoxsaylı ixtiraları ilə şöhrətlənməsinə baxmayaraq, o Yer kürəsinin simsiz elektrik layihəsini həyata keçirməyə nail olmadı. O, ionosferdən istifadə olunmaqla, Yer kürəsinin istənilən yerində simsiz elektrik keçiricisindən istifadə nəzəriyyəsini kəşf etdi. Layihəni reallaşdırmaqdan ötrü Tesla 1905-ci ildə eksperimentə başladı. Lakin ABŞ-dakı böhran layihənin dayandırılması ilə nəticələndi. 1943-cü ildə dünyasını dəyişən alim simsiz elektrik layihəsinin sirlərini də özü ilə məzara apardı.

# Oxucuların nəzərinə!



*Əl işdən soyumaz, ürək arzudan...*

**QƏBƏLƏ**

Qəbələ rayonunun ictimai-siyasi qəzeti 1933-cü ildən nəşr olunur

## qəzetinə

***2017-ci il üçün abunə yazılışına başlanmışdır.***

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

# ELANLAR

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 5 fevral 2007-ci il tarixdə Hacılalı kənd sakini **Qədirov Azər Mustafa oğlun**a verilmiş MN seriyalı, 000334 nömrəli (reyestr №-si 406013000814) **Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixdə 19 saylı qərarla Vəndam qəsəbə (kənd) sakini **Cəbrayılova Mədinə Qurban qızına** verilmiş JN seriylı, 375 A nömrəli (kodu 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Dövlət Aqrar İslahat Komissiyası tərəfindən Bum qəsəbə sakini **Osmanova Saray Şıxməmməd qızına** verilmiş JN seriyalı 848 nömrəli **Torpağın mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.


*Redaktor*
*V. A. Yaqubov.*

*TƏSİSÇİLƏR:*
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**
*Məsul növbətçi*
*Q. C. Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 1800.
Oxucu məktubları geri qaytarılmır.